Yaddaşlarda yaşayanlar

# Oqtay Rza dünyası



## "Bu adla şeir yazmaq olmaz, təxəllüs götür"

**... 1973-cü ilin yayı idi. Oqtay Rza "Hünər" televiziya verilişinə müharibə əlili oan atam haqqında material hazırlamaq üçün Qutqaşen rayonunun Mirzəbəyli kəndinə gəlmişdi. Elə o vaxtlar da Qutqaşenə Qəbələ deyirdi. Mənim ədəbiyyata həvəsli olduğumu biləndə dedi ki, sənin adın "qe" hərfi ilə bitir, soyadın isə "qe" hərfi ilə başlanır. İttifaq Qaçayev. Çox ağırdır. Təxəllüs götür. Məsələn, Mirzəbəyli...**

Dedim axı, bizim nəsildə bəy olmayıb. Dedi, sizin kəndinizin adında xalqın ziyalılığı da var, zadəganlığı da. Mirzə də var, bəy də...

Elə o gündən Mirzəbəyli oldum.

### "Məni Xortdanla bərk qorxutmuşdun"

Mən Bakıya gələndə atam tapşırmışdı ki, mütləq Oqtay Rzanı tap. Onunla görüş. Məni televiziya tamaşaçılarına tanıdıb, süfrəmizdə çörək kəsib.

Elə ilk aylarda, hələ tələbə olmadığım vaxtlarda APİ-yə gedib Oqtay müəllimi soruşdum. Dedilər coğrafiya fakültəsinin Dağıstan küçəsindəki (indiki Azadlıq prospektini kəsən kiçik bir küçə idi – İ.M.) tədris binasındadır. Gedib tapdım. Özümü təqdim etdim, xatırladı. Dedi ki, yaxşı gəlmisən, indi fakültəmizin tədbiri var. Bir şeir oxuyarsan. İnstitutun "partkom"u da gələcək. "Partkom" sonradan "26-lar" rayonunun birinci katibi olmuş rəhmətlik Xəlil Xəlilov idi.

Oqtay müəllim məni tədbir iştirakçılarına gənc şair kimi təqdim etdi. Bir şeir oxudum. Şeirin əvvəlindəki "xortdanlardan, xoxanlardan qorxmaq" ifadəsini eşidəndə bərk narahat oldu. Ancaq kapitalist ölkələrini qamçılayan şeir sırf siyasi məzmunla bitəndə "partkom" da alqışladı, tədbir iştirakçıları da. Oqtay müəllim qulağıma pıçıldadı ki, məni Xortdanla bərk qorxutmuşdun. "Partkom"un elə şeylərdən xoşu gəlmir. Amma, yaxşı qurtardıq.

### "Öhdəlik götürürəm ki, 60 il yaşayacağam..."

... 60 yaşından beş-altı ay əvvəl onu radionun canlı yayımına dəvət etmişdim. Rusiyanın hansısa diyarına səfərdən yenicə qayıtmışdı. Çıxışının sonunda üzünü salyanlılara tutaraq dedi:

– İndiyədək Salyanın heç bir ziyalısı 60 il yaşamayıb. Əli bəy Hüseynzadə, Aşıq Pənah, Əliağa Kürçaylı, Ağacavad Əlizadə, Xəlil Rza... heç biri 60 il yaşamayıb. Mən öhdəlik götürürəm ki, 60-ı büküb dizimin altına qoyacağam. Həmin verilişin ertəsi günü Salyandan Bəşirov familiyalı bir adam gəlib Oqtay müəllimin 15 dostuna qonaqlıq verdi. Bəşirov məclisdə "Kaş dünən radioda danışan jurnalisti də gətirəydiniz" – deyəndə Oqtay Rza mənə eyhamla baxdı və bildirdi: İttifaq Mirzəbəyli belə məclislərə getmir. Ona ayrılıqda məclis təşkil edərik.

60 il yaşamaq barədə öhdəliyinə isə kişi kimi əməl elədi və 25 il də artıq!

Allah rəhmət eləsin! Ədəbiyyatla, kitabla, jurnalistika ilə bağlı tədbir Lənkəranda, Qusarda və ya Qazaxda olsa belə, mümkün qədər iştirak edirdi.

### "Dayan, o itin ciyərini çıxardım"

Oqtay müəllim danışırdı ki, salyanlı şairlərdən biri itdən yaman qorxurdu. Deyir, Salyandakı dostlarımızdan biri bizi kəndə çay içməyə çağırmışdı. Darvazadan içəri girəndə bağlı it hürdü və az qala, zənciri qıracaq qədər həşir-qiyamət qopardı. Dostumuz sarısını uddu, əlləri əsdi, sifəti ağardı, ürəyi dayanmaq dərəcəsinə gəldi və birtəhər onu sakitləşdirdik ki, it zəncirdədir, bizə tərəf gələ bilməz.

Möhkəm yeyib-içdik. Axşamüstü biz həyətdən çıxanda it yenə də həmin hengaməni təkrarladı. Dostum əynindən pencəyini çıxarıb mənə uzatdı ki, bunu saxla, o it səhər də heyvanlıq eləmişdi. İndi onu boğub ciyərini çıxaracağam.

Dedim, Allah araq yaradanın atasına rəhmət eləsin ki, qonşu həyətdə it hürəndə də burada ürəyi dayanan adam indi itin ciyərini çıxarmaq istəyir.

### "Lağımın "İçərişəhər" dayanacağından "Bəstəkar Qara" dayanacağına"

O, hələ sovet illərində də soyadlarımızdakı "ov", "yev" şəkilçilərindən istifadə etmir, müstəqillik dövründə isə bizim də belə düşünməyimizi arzulayırdı. Bir dəfə onun Qara Qarayev ad-soyadını ov şəkilçisiz necə işlədəcəyini öyrənmək üçün soruşdum ki, metronun "Bakı Soveti" stansiyasından Qara Qarayev stansiyasına neçə dəqiqəyə getmək olar?

Onun fikrincə, mənim sualımda altı-yeddi qəbuledilməz söz var imiş. Dedi: "Lağımın "İçərişəhər" dayanacağından "Bəstəkar Qara" dayanacağına 13-14 dəqiqəyə getmək mümkündür."

### İki ustad

Ayın, ilin, əsrin və minilliyin dəyişdiyi gün ərəfəsində məni bir yeməkxanaya dəvət etdi. Getdik. Biz yenicə oturmuşduq ki, rəhmətlik Nüsrət Kəsəmənli tanımadığım dostu ilə gəldi. Nüsrət "Nuş olsun, ustad!"– deyə Oqtay müəllimə salam verdi. Oqtay müəllim isə "Ustad, buyurun bizimlə çörək kəsin!" – deyə onları da stolumuza dəvət etdi. Gəlmədilər və təxminən, beş-on dəqiqə bizdən tez durub getdilər.

Mən əlimi yumaq bəhanəsi ilə icazə alıb qalxdım ki, süfrənin haqqını ödəyim. Xidmətçi xanım dedi ki, sizin stolun hesabını şair verdi. Nüsrət Kəsəmənlini deyirdi.

Oqtay müəllim bunu eşidəndə Nüsrətin qarasınca məhz özünəməxsus şəkildə gileyləndi: Ay səni Allah saxlasın, ustad, bizi niyə utandırırsan?

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*